T Ü R K M A N L A R

(Tarixi – etnoqrafik oçerk)

Bu ilin yanvar ayında Ermənistan hökuməti İrəvan yaxınlığında (Üçkilsəyə (Eçmiadzin) gedən yol üstündə) yerləşən Cəfərabad (Arqavand) kəndindəki «türkman əmirləri» künbəzini bərpa etmiş və onun açılışını keçirmişlər. Açılışda Ermənistanın bir çox dövlət adamları ilə yanaşı Türkmənistan Respublikasının səfiri Toyli Qurbanov da iştirak etmiş və Ermənistan hökumətinə təşəkkürünü bildirmişdir. Paralel şəkildə AK Parti Qrup Başkan vəkili Hüseyn Çəlik bu hadisəni Türkiyəyə qarşı bir jest kimi dəyərləndirmiş və buna qarşılıq olaraq Van gölündəki Akdamar adasında yerləşən erməni kilsəsinin restavrasiya edilməsini Kültür bakanlığına təklif etmiş və Kültür bakanlığı da bu təklifi qəbul etmişdir.

Məsələyə münasibət bildirməzdən öncə barəsində danışdığımız künbəz haqqında bilgi verməyə ehtiyac var. Bərpa edilən abidəni 1413-cü ilin oktyabr ayının 14-də (Hicri təqvimlə 816-cı ilin rəcəb ayının 15-i) Əmir Saadın oğlu Pir Hüseyn tikdirmişdir. Abidənin içərisindəki yazıda «xaqan» Pir Budağın, «noyon» Qara Yusifin, Əmir Saadın və oğlu Pir Hüseynin adı çəkilir. Künbəzin 1411-ci ildə ölməsi güman olunan Əmir Saadın şərəfinə qoyulması ehtimal olunur.

Əmir Saadın şəxsiyyəti haqqında mənbələrdə müəyyən məlumatlar var. Bu şəxs Qaraqoyunlu tayfa birləşməsinə (elinə) daxil olan Saadlu oymağının təsisçisi sayılır. XIV əsrin sonlarında yaranması ehtimal olunan bu oymağın adı ilə onun təsisçisinin adı üst-üstə düşür. XIV əsrin sonlarında yaranması ehtimal olunan Çuxur-Sa'd əmirliyi də Saadlu oymağı və onun təsisçisi Əmir Saadın adı ilə bağlıdır. Əvvəllər inzibati mərkəzi İrəvan olan əmirliyin mərkəzi həmin əsrin sonlarında Naxçıvana köçürülmüşdür. Əmirlik XVIII əsrə qədər yarımmüstəqil şəkildə yaşamışdır (S.A.Mamedov. Azerbaydjan po istoçnikam XI – pervoy polovını XVIII vv., Baku, 1993, s. 138-141). 1728-ci ildə tərtib olunan «İrəvan əyalətinin icmal dəftəri»ndə (Bakı 1996) qarşılaşdığımız Karni nahiyəsinə aid Saadlı (və ya Saat) kəndi və məzrəsi, Abnik nahiyyəsinə aid Saat kəndi, Maku nahiyəsinə aid Saqat kəndi Saatlı oymağının adı ilə bağlıdır (s. 47, 49, 98, 176). Saadlu oymağının bir hissəsinin XIX əsrdə Azərbaycanın güneyində – Xalxal bölgəsində yaşaması da bəllidir (F. Sümer. Oğuzlar (Türkmenler), 1980, s. 640). «Saatlı» adı ilə tanınan rayon başda olmaqla Azərbaycanın başqa bölgələrində də bu toponimə təsadüf olunur.

Türkmənistan səfirinin abidənin sahibi olan xalqın rəsmi nümayəndəsi kimi açılışda iştirak etməsi, doğrusu bizdə heç bir təəccüb hissi doğurmadı. Ona görə ki, müasir türkmən elmi fikrinin öz etnik varlıqları haqqında təsəvvürlərindən az-çox xəbərdar idik. Türkmən qardaşlarımız daşıdıqları etnik ada söykənərək Xorasanda, İranda, İraqda, Azərbaycanda, Türkiyədə bu etnonimin daşıyıcısı olan ayrı-ayrı etnoqrafik qrupları müasir türkmən xalqının qəlpələri sayır və az qala onları Türkmənistandan getmiş mühacirlər olaraq qəbul edir. Bundan başqa onlar tarixən bu ərazilərdə qurulmuş dövlətləri də (Səlcuqlu, Osmanlı, Qaraqoyunlu, Ağqoyunlu,

Səfəvi və s.) Türkmənistandan getmiş mühacirlərin dövləti sayır. Türkmənistan tarixçiliyinin sözü gedən orta əsr dövlətləri haqqında bu şəkildə düşünməsinin haradan qaynaqlandığı bizə aydındır. Məsələ bundadır ki, bütün orta əsr qaynaqları türkmanları haqqında danışdığımız dövlətlərin yaradıcısı sayır və bu həqiqətən də belədir. Yə'ni «türkman» adlı etnosun Orta Asiyadan çıxması, bu ərazilərə gələrək bir çox dövlətlər qurması tarixi bir gerçəklikdir. Bununla yanaşı, irəlidə görəcəyimiz kimi, türkmən qardaşlarımız etnik varlıq, etnik təşəkkül, etnik sistem haqqında biliklərin mahiyyətinə varmadan tarixi *türkmanlıq* ilə müasir *türkmənlik* arasında bərabərlik işarəsi qoyurlar. Vəziyyətin bu şəklə gəlməsində Azərbaycan sovet tarixçiliyinin etnik və siyasi tariximizi sistemli şəkildə *azərbaycanlılaşdırmaları* da az rol oynamayıb. Azərbaycan tarixşünaslığı sovet dövründə qəbul etdirilmiş psevdoetnonimin (azərbaycanlı) qəliblərinə uyğun olaraq harada *türkman* (eləcə də *türk*) etnonimi ilə qarşılaşıbsa, əksər hallarda onu *azərbaycanlı* psevdoetnonimi ilə əvəz edib. Ən yaxşı halda isə etnonimi qeydə alaraq *azərbaycanlı* psevdoetnonimi ilə sözü gedən etnonimlərə şərh verib. Beləliklə, müasir *türkmən* etnonimi etnik tarixin qavranılmasında türkmən tarixçiliyi üçün necə düşüncə stereotipinə çevrilirsə, *azərbaycanlı* psevdoetnonimi də Azərbaycan tarixçiliyi üçün o şəkildə düşüncə stereotipinə çevrilir. Bu halda türkmən tarixçiliyi qalib görkəmdə görünür. Azərbaycan tarixiçiliyinin isə yazıq görkəmi təəssüf doğurur.

Saadlu oymağının Qaraqoyunlu tayfa birliyinə (elinə) daxil olması, Qaraqoyunluların isə özlərini *türkman* sayması orta əsrlər tarixindən az-çox xəbərdar olan hər bir kəsə bəllidir. Bununla yanaşı, Qaraqoyunluların əsas hissəsinin elxanlı Arqun xanın hakimiyyəti illərində (1284-1291) Orta Asiyadan gəlməsi faktı tarixşünaslıqda özünə möhkəm yer tutmuşdur (A.Zeki Velidi Toğan. Umumi türk tarihine giriş, Ic., III baskı, İstanbul, 1981, s. 258). Onu da yada salmaq istərdik ki, Qaraqoyunlu adını daşıyan tayfa özbəklər, qaraqalpaqlar, türkmənlər, Anadolu türkləri arasında da vardır (V.V.Radlov. İz Sibiri, M., 1989, s. 103, 105; M.Eröz. Yörükler. İstanbul, 1991, s. 47; A.Djikiev. Etnoqrafiçeskiy oçerk naselenie öqo-vostoçnoqo Turkmenistana, Aşqabad, 1972, s. 55-56). Amma, Qaraqoyunluların əsas hissəsinin Azərbaycanda toplanması da heç kimdə şübhə doğurmamalıdır. Bu üzdən Qaraqoyunlu elinin, eləcə də bu elə daxil olan müxtəlif tayfa və oymaqların adları ilə (Saadlu (Sa'dlu) Baharlu, Duharlu, Karamanlu, Alpağut, Ayinlu, Hacilu, Ağacəri, Bayramlu) tarixi Azərbaycan torpaqlarının hər tərəfində qarşılaşmaq mümkündür. Bunun səbəbini Qaraqoyunluların Azərbaycan ərazisində 60 ilə yaxın sürən hakimiyyətində axtarmaq lazımdır.

Doğrusu, oğuz əsilli bu üç xalqın (Türkmənlərin, Azərbaycan və Türkiyə türklərinin) etnik sərhədlərinin harada birləşib, harada ayrılması probleminə hər addımda ehtiyac hiss olunmasaydı, biz bu mövzuya toxunmayacaqdıq. Bu problemin həlli həm də ona görə vacibdir ki, məsələ elmi müstəvidən siyasi müstəviyə keçir və vəziyyətin bu şəkildə davamı bizi bu üç qardaş xalq arasındakı münasibətlərin pozulmasına aparır.

Əslində atalarımızın mə'nəvi dəyərlərini mənimsəmək uğrunda apardığımız rəqabətin tarixi sovet dövrünə gedib çıxır. Nəsiminin 600 illik yubileyi keçirilən zaman türkmən qardaşlarımızın Nəsiminin Azərbaycan şairi olmasına e'tiraz etmələri çoxlarının yadındadır. «Kitabi-Dədə Qorqud» dastanlarının 1300 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan prezidentinin verdiyi qərara qarşı Türkmənistan prezidentinin dastanın 1500 illik yubileyinin keçirilməsi haqqında verdiyi qərar bu yaxınlarda baş verdi. Bütün bunlar qan verən köhnə yaralardır və nə qədər ki, bu problem özünün elmi həllini tapmayıb, üç qardaş xalq arasındakı münasibətlərə pozucu tə'sir göstərəcək.

Metod məsələsi. Azərbaycan tarixçiliyinin ən'ənələrinə söykənib məsələnin elmi həllini vermək mümkün deyil. Ona görə ki, Azərbaycan tarixiçiliyi etnik tarixlə yox, ərazinin tarixi ilə məşğul olur. Ona görə də «Azərbaycan tarixi» adı bu tarixin yazılmasında götürülən prinsiplərə uyğun gəlir. «Türkman əmirləri» abidəsi ilə bağlı çıxan problem (buna bənzər problemlərin vaxtaşırı üzə çıxması istisna olunmur) bu prinsipin yararsızlığını aydın şəkildə ortaya qoyur. Azərbaycan tarixçiliyinin coğrafi prinsipi türkmən tarixçiliyində etnik prinsiplə əvəz olunur. Bunun nəticəsində orta əsrlər Azərbaycan tarixi «türkmən tarixinin Azərbaycan mərhələsinə çevrilir». Bu zaman Azərbaycan tarixçiliyinin elmi ola biləcək heç bir sözü qalmır.

Azərbaycan tarixçiliyində coğrafi prinsip elmi bir hadisə olaraq (etnosun formalaşmasına tə'sir edən amillərdən biri kimi) yox, sırf mexaniki anlamda tətbiq olunur. Bu üzdən «Azərbaycan tarixi» bölgədə baş verən siyasi hadisələrin xronikasına çevrilir.

Bu prinsipə uyğun olaraq Azərbaycan tarixşünaslığı etnosun tarixi coğrafiyası əvəzinə yaşadığı müasir bölgənin tarixi coğrafiyası ilə məşğul olur və bu meyl etnik sərhədləri ərazinin tarixi sərhədləri ilə müəyyənləşdirmək cəhdindən doğur. Belə araşdırmalar ərazidə qurulan dövlətlərin siyasi sərhədlərini, eləcə də yaşadığımız ölkənin tarixi sərhədlərini qaynaqlar əsasında müəyyənləşdirmək istiqamətində aparılır. Bu yöndə olan araşdırmalar əslində erməni tarixbazlığının tə'siri ilə bağlıdır. «Böyük Ermənistan» ideyasına xidmət edən bu araşdırmalar erməni etnik tarixinin səciyyəsindən doğur. Vətən torpaqlarının daralması prosesini izləmək üçün son 250 illik tariximizə münasibətdə belə araşdırmalar xeyirli olardı. Ancaq bütövlükdə etnik tariximizin bu prinsiplərlə araşdırılması tamamilə yararsızdır. Ən azı ona görə ki, bu metod etnik sistemin dinamik səciyyəsini nəzərə almır.

Etnosun böyüyərək geniş coğrafiyaya yayılması, eləcə də yığılaraq başqa xalqlar içərisində (istər qohum, istər yad) kiçik etnoqrafik qruplar şəklində yaşaması və ya tamamilə əriyərək məhv olmasına aid ümumdünya tarixindən çoxsaylı misallar gətirmək olar. Göründüyü kimi, etnosun coğrafiyası onun etnik iradəsinin gücündən asılıdır.

Son təhlillərimiz L.N.Qumilyevin etnologiyasına əsaslanırdı. Həqiqətən də, L.N.Qumilyev etnologiyası etnosun təbiətinə xas olan dinamizmi «anlamaq» və onu izah etmək gücündə olan vahid nəzəri sistemdir.

Haqqında danışdığımız etnonim, irəlidə göstərəcəyimiz kimi, tarixin müəyyən dövründıə etnosun həyat tərzi ilə bağlı olduğu üçün sosiologiyanın verdiyi imkanlar da problemin izahına yardım edir.

Türkman xalqı: tarixə çıxışı və formalaşması. Türkman etnonimi ilə ilk dəfə VIII əsrin Çin, soqdi və ərəb qaynaqlarında qarşılaşırıq (A.Zeki Velidi Toğan. Göstərilən əsər, s. 212; S.Aqadjanov. Novıe materialı o proisxojdenii turkmen, – İzv. AN Turkmenskoy SSR, 1963, s. 12-24). Bu terminin ilk dövrlər hansı anlamda işlənməsi haqqında elmdə çox sayda fikirlər var. Bu yazıda qarşıya qoyduğumuz məqsəddən uzaqlaşmamaq üçün bu məsələnin üzərində dayanmırıq. X əsrin ikinci yarısından başlayaraq «türkman» sözünün islamı qəbul etmiş oğuzların etnik adına çevrilməsi fikri elmdə özünə möhkəm yer tutub. Oğuzların yerdə qalan qisminin də islamı qəbul etməsi hesabına «türkman» etnonimi «oğuz» etnonimini tədricən sıxışdırır. Bu prosesin necə getdiyini təsəvvür etmək üçün aşağıdakı fakt yardımçı ola bilər. X əsrin ikinci yarısında Müqəddəsi və onun ardınca Mərvazi türkmanlardan oğuzların bir hissəsi olaraq bəhs edir (Eröz. Göstərilən əsər, s. 18). XII əsrin sonu XIII əsrə aid qaynaqlarda (Əl-Bundari XII-XIII əsrlər, Rəvəndi XIII əsr) isə əksinə, oğuzları türkmanların bir tayfası adlandırılır. Bu məsələyə diqqət yetirən S.T.Ağacanov yazır: «Səlcuqlu dövründə «türkmən» etnonimi «oğuz» terminini tədricən sıxışdırırdı, artıq oğuzlar türkmənələrin bir hissəsi sayılırdı» (S.T.Aqadjanov. Qosudarstvo Selğdjukidov i Srednəə Aziə v XI-XIII vv, Nauka, 1991, s. 269). XII əsrin ortalarına qədər oğuzlar subetnos şəklində türkmanların içərisində öz varlıqlarını davam etdirirdilər. *Bəlx oğuzları* adlanan bu etnik birlik Sultan Səncərin «xas rəiyyəti» (Rəiyyət əl-xas) idi. Yə'ni birbaşa Sultan administrasiyasına tabe idilər. 1152-ci ildə onlar Sultan Səncərə qarşı qiyam qaldırdılar. Sultan ordusu məğlub oldu və bununla da Şərqi Səlcuqlu sultanlığı oğuzların əlinə keçdi. Bu hadisə oğuzun sonuncu özəyinin də dağılmasına səbəb oldu. Sahib olduqları əraziləri idarə etmək üçün oğuz əmirləri müxtəlif bölgələrə səpələndilər. XII əsrin sonu – XIII əsrin əvvələrində Şərqi Səlcuqlu sultanlığının əraziləri Xarəzmşahlar dövlətinin əlinə keçdi.

XIII əsrdən başlayaraq «türkman» etnonimi «oğuz» etnoniminin yerini tutur. Artıq F.Rəşidəddin (XIII əsrin sonu – XIV əsrin əvvəlləri) bütün oğuz tayfalarının *türkman* adı ilə tanındığını bildirir (F.Raşidad–Din. Kritiçeskiy tekst, t. 1, ç. 1, 1965, s. 75-76). Eyni fikri Yazıçıoğlu Əli təkrar edir: Bizim zamanımızda bütün oğuzları *türkman* adlandırırlar.

Türkman etnoniminin oğuz etnoniminin yerini tutması mexaniki səciyyə daşımırdı və sadəcə termin əvəzlənməsi deyildi. Bu etnik sistemin içərisində oğuzlar dominant olsalar da, başqa türk etnik birlikləri də bu etnik sistemin içərisinə daxil

olmuşdular. Qıpçaq, kəngər, karluq, uyğur, kecet, çağra və s. kimi türk etnik birliklərinin türkman etnik sisteminin içərisinə daxil olması şübhə doğurmur. Bu etnik sistemin içərisisnə daxil olan bütün etnik birliklər özlərini türkman sayırdılar. Qıpçaqların, hətta monqolların Anadolunu işğal edəndən sonra burada yerləşdirdikləri qaratatarların belə *türkman* adlandırılması mənzərəni təsəvvür etməyə yardım edir (A.Zeki Velidi Toğan. Göstərilən əsər, s. 321; F.Sumep. Göstərilən əsər, s. 164). Oğuzlarla qıpçaqların, eləcə də oğuzlarla karluqların ayrı-ayrı etnik qruplar olması və onlar arasında olan vaxtaşırı konfliktlər elmə yaxşı mə'lumdur. Ancaq bu konfliktlər onların yeni bir etnik sistem halında birləşməsinə mane olmadı. Oğuzlarla türkmanları eyniləşdirən tarixçilərin və etnoqrafların nəzərinə belə bir faktı çatdırmaq istərdik ki, oğuz etnik sistemi (törə) türkman etnik sistemi daxilində ancaq «köhnə dünya» haqqında idealizə olunan şirin xatirələr şəklində yaşayırdı. *Beləliklə, Orta Asiyadan Anadoluya, Misirə qədər yayılan türkmanların vahid bir xalq olduğuna şübhə yeri qoyacaq heç bir əsas yoxdur.*

Turkiyə, Azərbaycan, Orta Asiya, Rusiya müəlliflərinin əsərlərində Anadolu, Azərbaycan, İraq, İran, Xorasan, Orta Asiya və s. türkmanları ifadələri sıx şəkildə işlədilir. Belə ifadələr XI-XIV əsrlərdə türkmanların coğrafi yayılmalarını təsvir etmək ehtiyacından doğsaydı, qəbul oluna bilərdi. İş ondadır ki, tarixçilər və etnoqraflar «türkman» etnonimini coğrafi tə'yinlərlə işlədərək ona etnik məzmun verməyə çalışırlar. Məsələyə müasir baxış göz qabağındadır və ayrıca tənqidə dəyməz.

Coğrafi yayılmaları. Səlcuqluların başçılığı ilə türkmanların məşhur Dandanakan savaşında (23 may 1040) Qəznəlilərə qələbə çalması türkmanların etnik tarixində böyük hadisədir. Bu qələbədən sonra Səlcuqlular hakimiyyətə gəldilər. Səlcuqluların qərbə döğru davam edən fəthləri türkmanların Xorasana, İran bölgələrinə, Azərbaycana, Ərəbistanın şimal-şərqinə axınları ilə müşayiət olunur. Malazqird meydan savaşında (1071) Bizans dövlətinin Səlcuqlu dövlətinə məğlub olması nəticəsində türkmanlar Anadolunun böyük bir hissəsinə sahib oldular. XII-XIII əsrlərdə onlar artıq Misirə qədər olan torpaqlara yayılmışdılar.

Səlcuqlu dövrünə qədər bu torpaqlarda (xüsusən, İranda, Azərbaycanda və Anadoluda) türk varlığı məsələsinin üzərində ayrıca dayanmayacağıq. Ona görə ki, Türkiyədə, Azərbaycanda, Avropa ölkələrində, Rusiyada bu problemə həsr olunmuş (və ya toxunan) məqalə və kitabların yalnız adını sadalamaq geniş yer tutardı. Onu demək istəyirik ki, *türkmanlar bu ərazidə onlara qədər yaşayan türkləri də öz içərilərinə aldılar.* Türkmanların hakim olduğu ərazilərdə irili-xırdalı onlarla xalqın varlığını nəzərə alsaq onların superetnosa çevrilməsini asanlıqla söyləmək olar. Fars tarixçisi Rəvəndi (XIII) dövrün bu səciyyəsini aşağıdakı şəkildə verir: «Qılınclarının xofu qəlblərinə hakim olduğu üçün farsların, ərəblərin, yunanların, rusların torpaqlarında söz türklərindir».

Müasir Ermənistan ərazisini çıxmaq şərtilə onlar yaşadıqları ərazilərə özlərinin etnik adını verə bilmədilər. Bu hadisənin tək bir səbəbi onların qılınc gücünə qurduqları dövlətin milli ən'ənələrdən uzaqlaşması və fars dövlətçiliyi ənənələrinin əsirinə çevrilmələri oldu.

Türkmanlar tapdanmış hüquqlarını bərpa etmək üçün dəfələrlə qılınca əl atsalar da, uğur qazanmadılar və Səlcuqlu dövləti götürdüyü kursu axıra qədər davam etdirdi. Əbülqazi Bahadır xanın «Şəcəreyi–tərakimə» əsərində Səlcuqlu dövlətindən inciklik motivi göstərir ki, Səlcuqluların milli ən'ənələrdən üz döndərməsi uzun müddət türkmanların yaddaşından silinməmişdir (A.N.Kononov. Rodoslovnaə turkmen. Soçineniə Abulğ-Qazi xana Xivinskoqo, M.-L., 1958, s. 96-97).

Türkmanların türklərə çevrilməsi. Türkmanların içərisində baş verən etnik diferensiallaşma prosesinin necə getdiyini anlamaq üçün öncə türkman cəmiyyətinin içərisində baş verən bə'zi sosial proseslərə diqqət yetirmək lazımdır. Onların başında türkmanların şəhərlərdə və kəndlərdə oturaq həyata keçməsi gəlir. Bu proses Orta Asiyadan Cənub-Şərqi Avropaya, Krıma, Misirə qədər olan geniş bir ərazidə baş verir. Elat həyatından oturaq həyata keçid insanların mənsub olduğu tayfalarla əlaqələrini qırır. *El* şəklində özünüidarədən adi təbəələrə keçid bu zaman baş verir. El və tayfa təşkilatı itirilir. Osmanlı dövlətinin qurucusu Osman qazi oğullarına oturaq həyata keçməmələrini vəsiyyət edəndə, səbəb olaraq bəyliyin türkmanlıq edənlərdə (yə'ni köçərilik edərək el sistemini qoruyanlarda) qalacağını, oturaq həyata keçənlərin əsalətlərinin itəcəyini göstərir (Z.Gökalp. Türk Medeniyeti tarihi, İstanbul, 1976, s. 25). *Türkmanlıqdan* əl çəkənlər el və tayfa mənsubiyyətini itirir və *türk* adlanmağa başlayır. F.Sümer Anadolunu nəzərdə tutaraq bu barədə yazır: «Türkmənlər bu ölkədə köçəriliyi buraxaraq oturaq həyat tərzinə keçməyə başladılar. Bunlar daha çox kəndlər salaraq və ya çoxlu köhnə kəndlərdə sakin olmaq surəti ilə yerləşirdilər. Səlcuqlu ordusuna dirlikli sipahi əsgərini verənlər də elə bu oturaqlaşanlar idi. Oturaq həyata keçən türkmənlərə bir müddət sonra artıq türkmən yox, *türk* adı verilirdi» (Sümer. Göstərilən əsər, s. 135). S.A.Ağacanov da öz növbəsində Xorasanın şəhər və kəndlərində oturaq həyata keçən oğuzların və türkmanların ***türk*** adlanmasını söyləyir (S.A.Aqadjanov. Qosudarstvo…, s. 163).

«Türk» termininin türksoylu əhalinin oturaqlaşmış hissəsinin etnik adına çevrilməsi yeni hadisə idi. Terminin etnik anlamı bu dövrdən başlayaraq sabitləşir.

A.N.Kononova görə, topluluq bildirən bu söz V əsrdə tayfa birliyinin etnik adına çevrildi (A.N.Kononov. Opıt analiza termina «turk», – SG, 1947, № 1). VI əsrin ortalarında bu el böyük dövlətə çevrildi. *Türküt* və *Göytürk* adı ilə tarixə keçən bu dövlətin siyasi iqtidarı dövründə (552-745) *türk* adı kütləviləşdi. Göytürk xaqanlığının çökməsindən sonra bu ad Göytürk dövlətinin hakimiyyəti altında olan qohum xalqların ümummilli adına çevrildi. L.N.Qumilyev terminin sonuncu

mə'nasını ərəb tə'siri ilə bağlayır (L.N.Qumilev. Drevnie törki, M., 1993, s. 6). Ən'ənəvi türk mətnlərində qarşılaşdığımız faktlar bu fikrin əleyhinədir.

589-618-ci illər arasında Çində hakimiyyətdə olmuş Suy sülaləsi illiyində göytürklərə məxsus So ölkəsi haqqında olan etnoqonik mifdə tayfa birliyinin (el) əsasını qoyan Natuluşeyə Türk adı verilir (B.Ögel. Doğu Göktürkleri hakkında vesikalar ve notlar, – TTKB (Belleten), 1957, № 81, s. 86-88). Bu halda Türk etnik birliyin əsasını qoyan şəxs kimi təqdim olunur. Ulu ata olaraq bu adın ən'ənədən gəlməsi və ya Göytürk epoxası dövründə meydana çıxması haqqında qəti bir fikir söyləmək çətindir. Ancaq sözü gedən etnoqonik mifdə etnik birliyin əsasını qoyan ulu ata, əcdad kimi təqdim olunur. Bu ən'ənəyə uyğun olaraq, orta əsr şəcərələrində, o cümlədən «Şəcərəi–tərakimə»də Türk Nuhun nəvəsi, Yafəzin isə oğludur (A.N.Kononov. Rodoslovnaə..., s. 39). «Oğuz kağan» dastanında Uluq Türük adlı ağsaçlı, ağsaqqallı müdrik şəxs Oğuz kağanın yanında oturur. Sarı uyğurlara məxsus şaman ilahilərində *Uluk Turk* tanrılardan biridir (S.E.Malov. Ostatki şamanstva u jeltıx uyqurov, – JS, 1912, vıp. 1, s. 67-72). «Manas» dastanında Türk qohum xalqların (qazaxların, qırğızların, özbəklərin, qıpçaqların, uyğurların və s.) ulu atası, əcdadıdır. Ona görə də dastanda qohum xalqların özlərini *türk* adlandırması eyni adlı Ulu atanın varlığına inamla paralel şəkildə gedir və bu paralellik bütövlükdə dastanın poetik sisteminə hopur (Ə.Əsgər. «Manas» dastanında türklük şüuru, «Elm» qəzeti, 27.08.1999). Bu faktların müəyyən ən'ənədən gəldiyini söyləsək, mübaliğəyə yol vermərik. Deməli, Göytürk epoxasından bu yana *türk* adının etnoqonik mifin özəyi olduğunu və qohum xalqlar arasında oturuşduğunu iddia etmək olar.

Beləliklə, Göytürk xaqanlığının dağılmasından sonra *türk* adının qohum olan etnik birliklərin ümummilli adına çevrilməsi hadisəsi xaqanlığın ideologiyasında axtarılmalıdır və onu ərəb tə'siri ilə bağlamaq mə'nasızdır.

L.N.Qumilyevin fikri, qismən, «türk» termininin yeni mə'nasına, yə'ni oturaq həyata keçmiş elat əhalinin etnik adına çevrilməsinə münasibətdə özünü doğruldur.

Türklər oturaq həyata keçən xalqları (əsasən, irandilli) «tat» adlandırırdılar. Sosial anlamda bu termin oturaq həyata keçmiş əhaliyə də aid olunurdu (A.N.Kononov. Göstərilən əsər, s. 96-97; S.Q.Kləştornıy. Drevnetörkskie runiçeskie pamətniki kak istoçnik po istorii Sredney Azii, M., 1964, s. 122-123). Xilafətin istilalarından sonra «tacik» termini də oxşar anlamda işlənmişdir. Türklər öncə ərəbləri, sonra Orta Asiyanın müsəlman əhalisini, nəhayət, farsları «tacik» adlandırırdılar. Sonrakı dövrlərdə bu termin şəhərlərdə yaşayan «mədəni türkləri» də ifadə etmişdir (A.Zeki Velidi Togan. Göstərilən əsər, s. 214-215).

Göründüyü kimi, türk etnik ən'ənəsində oturaq əhalinin *türk* adlanması tamamilə yeni hadisədir. Elat oğuzların oturaq oğuzları «yatıq» adlandırması haqqında M.Kaşğarlının qeydi bu baxımdan məsələyə aydınlıq gətirir.

Türklərdə etnik mənsubiyyət həyat tərzi və ona uyğun olan etnik təşkilatla sıx bağlı idi. Ona görə də eldən və boydan çıxanlar özlərinin etnik dünyalarından da

çıxmış sayılırdılar. Yeni etnik mühitdə onların başqa türk etnik birliklərindən çıxanlarla və tibetli, çinli, hind, əfqan, fars, ərəb, yunan və s. xalqların nümayəndələri ilə yanaşı yaşadıqlarını nəzərə alsaq, onda həm türksoylu şəhərlilərə, həm də bu xalqların nümayəndələrinə bəlli olan ümummilli terminin türksoylu əhaliyə münasibətdə aktivləşməsini anlamaq olar. Beləliklə, «türk» termini ümummilli addan etnik ada çevrilərkən türkman (eləcə də karluk, uyğur və s.) adı ilə bərabərləşir. Başqa sözlə, «türk»" termini də «türkman» termini kimi etnik ada çevrilir.

Oturaqlaşma etnik, eləcə də mə'dəni sistemdə bir çox dəyişikliklər yaradır. Elat həyata məxsus bir çox institutlar (el, oymaq, boy və s.) itirilir. Yeni həyat tərzi bəlli institutlara uyğunlaşmağı tələb edir. Əsas məşğuliyyət sahəsi olan heyvandarlıq öz yerini əkinçiliyə verir və s. Sosial diferensiallaşma etnik diferensiallaşmaya keçir.

Bu baxımdan yanaşdıqda, orta əsr müsəlman müəlliflərinin əsərlərində işlənən «türk» və «türkman» terminlərinin ayrı-ayrı etnik birlikləri ifadə etdiyini söyləmək olar. Bu məsələyə diqqət yetirən Zəki Vəlidi Toqan «türk» termininin Qaraxanlı dövlətinin ərazisindən gələnləri ifadə etdiyini söyləyir (A.Zeki Velidi Togan. Göstərilən əsər, s. 198). Yuxarıda verdiyimiz təhlillərin fonunda görkəmli alimin bu məsələdə yanıldığı açıqdır. Qaraxanlı ərazisindən Azərbaycana, Anadoluya gələn əhalinin *türk* adlanması tamamilə mümkündür. Ona görə ki, yalnız oturaq həyata keçən türkmanlar deyil, eləcə də oturaqlaşan başqa etnik birliklər də uyğun şəkildə ümummilli terminlə tanınmışlar. Orta əsr qaynaqlarında işlənən «türki-Xütən» (Xotan), «türki-Səmərqənd», «türki-Əcəm», «türki-Rum» izafətləri sözü gedən sosioetnik hadisə ilə bağlıdır.

Türkmanlar və yürüklər. Türklərdən sonra tarix səhnəsinə *yürük* adlanan yeni bir etnoqrafik qrup çıxır. Yürüklərin tarix səhnəsinə çıxışı Osmanlıların Avropaya çıxışından sonrakı dövrlərə aiddir. Onların adı ilk dəfə olaraq XV əsrdə Sultan Mehmet Fatehin (1457-1481) «Qanunnamə»sində və Oruc bin Adil, Aşıq Paşazadə kimi Osmanlı tarixçilərinin əsərlərində xatırlanır. Yürüklərin Avropaya çıxmazdan öncə Anadoluda olmaları bəllidir. Ancaq onların Anadoluda hansı şəkildə mövcud olmaları haqqında aydın təsəvvür yoxdur. Avropanın fəth olunmasında və məskunlaşdırılmasında onların rolu böyükdür. Yürüklərin böyük bir etnik birliyə çevrilməsi də Avropanın fəthi prosesində baş verib. Onlar Avropa torpaqlarında yaradılan hərbi-inzibati birlik kimi mövcud olmuş, sonralar etnoqrafik qrupa çevrilmişlər.

Yürüklər əsas e'tibarilə türkmanlardan təşkil olunmuşdur. Ancaq onların türkman olmayan və hətta türk olmayan ünsürləri də öz içərilərinə almaları bəllidir (D.E.Eremeev. Proisxojdenie örökov i turkmen Turüii i osnovnıe gtapı ix istorii. – Gtniçeskie proüesı i sostav naseleniə v stranax Peredney Azii, M.-L., 1963, s. 28-48). Türkiyə etnoqrafı M.Erözün yürüklərlə (müəllif bu adı «yörük» şəklində verir)

türkmanlar arasında bərabərlik işarəsi qoyma cəhdləri ilə razılaşmaq olmaz (M.Eröz. Yörüklər, İstanbul, 1991, s. 23). Bir etnoqrafik qrup olmaq e'tibarilə yürüklərin özlərini türkman saymamaları faktdır. Etnik tərkibinə görə isə onların, əsasən, türkmanlardan təşkil olunması şübhə doğurmur.

Yürüklərin türkmanlara münasibəti Azərbaycanda *ayrım* adlanan etnoqrafik qrupun tərəkəmələrə münasibətinə bənzəyir. Bəllidir ki, Azərbaycanda, eləcə də Anadolunun şərqində elat həyat tərzi keçirən əhali özünü «tərəkəmə» («türkman» etnoniminin ərəbcə cəmi olan «tərakimə» sözündəndir) adlandırır. Etnonim müasir halında daha çox sosial anlamda işlənərək «elat» sözünü əvəz edir. Buna baxmayaraq, keçmişdə oxşar həyat tərzi keçirən *ayrım* adlı etnoqrafik qrupun üzvləri özlərini tərəkəmə saymır və öz adları ilə təqdim olunurlar. «Tərəkəmə» termininin etnik anlamı da elə bu zaman ortaya çıxır. Sovet etnoqraflarının ayrımların mənşəyi haqqında müxtəlif əfsanələr uydurmalarına baxmayaraq, onların oğuz-türkman mənşəli olmaları şübhə doğurmur. Ayrımların tayfa-tirə tərkibi öyrənilmədiyi üçün onların oğuz-türkman tayfaları ilə bağlılığına aid konkret faktlar gətirmək imkanınmız yoxdur. Oğuzlar haqqında ayrımlar arasında yaşayan əfsanələr onların oğuz-türkman mənşəyi haqqında müəyyən təsəvvür yaradır (K.T.Karakaşlı. Materialğnaə kulğtura azerbaydjanüev, Baku, 1964, s. 27-31). *Padar* və *qaraçorlu* adlanan etnoqrafik qruplara münasibətdə də oxşar vəziyyətlə qarşılaşırıq. Bəllidir ki, padarlar On uyğur tayfalarından biridir. Onlar monqollarla gələn uyğurların içərisində olmuşlar (A.Zeki Velidi Toqan. Göstərilən əsər, s. 54). Tərəkəmələrin özlərini padarlara qarşı qoymaları sonuncuların uyğur əsilliyi və monqol siyasi birliyinə daxil olmalarından doğur. Qaraçorluların da padarlar kimi tərəkəmə sayılmamasının səbəbini onların başqa etnik birliklərin tərkibində olması və türkman cəmiyyətinin içərisinə sonrakı dövrlərdə daxil olmasında axtarmaq lazımdır.

Türkmanların asimilyasiyası: Türkmanların assimilyasiyasına şərait yaradan başlıca amil onların oturaq həyata keçərək *türkləşməsidir.* Bu sosial hadisənin nəticəsində Orta Asiyanın, Xorasanın şəhər və kəndlərində onların cığataylaşması, tacikləşməsi, əfqanlaşması, İranin ayrı-ayrı şəhər və kəndlərində farslaşması, İraqda, Şamda, Misirdə ərəbləşməsi, Orta Asiyadan birbaşa Şərqi Avropaya gələnlərin ruslaşması və ukraynalaşması prosesi getmişdir. Onların İran Kürdüstanında kürdləşməsi azlıqda qalmaları, Şərqi və Cənub-Şərqi Anadoluda kürdləşməsi isə, irəlidə görəcəyimiz kimi, siyasi səbəblərlə bağlı olmuşdur.

Türkmanlar və monqollar. Monqol yürüşləri Rusiya avrasiyaçılarının qabartmağa çalışdıqları kimi nə nestor (nəsrani) təriqəti ideallarına, nə də Səlcuqlular kimi islam ideallarına söykənirdi. Monqollar heç şamançı da deyildilər. Əks təqdirdə Çingiz xan şamanların dövlət işlərinə qarışmasını qadağan etməzdi (Q.V.Vernadskiy. İstoriə Rossii: Monqolı i Rusğ, M., 2000, s. 13). Monqol yürüşləri

XIII-XIV əsrlərin rəsmi sənədlərinin girişində yazılan «əbədi göyün gücü ilə» formuluna söykənirdi və bu formul «Göy Tanrı» və ya «tanrıçılıq» adlandırılan türk dininin inanışlar sistemindən gəlirdi. Bu üzdən monqol hakimiyyəti illərini tanrıçılığın və onun müqəddəs kitabı olan türk törəsinin – Yasanın bütün dünya dinlərinin və müqəddəs kitablarının fövqünə qalxdığı dövr kimi səciyyələndirmək olar. Bu hadisə monqolların hakim olduğu bütün ərazilərdə idarənin Yasaya əsaslanması vasitəsilə gerçəkləşdirilirdi. «Əbədi göyün gücü»nə inanan monqollar başda Çingiz xan olmaqla ilahi iradəni yerinə yetirdiklərinə qeydsiz-şərtsiz inanırdılar: «Bu inamla yaşayan Çingiz də bütün dünyanın onun hakimiyyətini qəbul etməsini tələb edirdi. Onun imperiyasının bütün düşmənləri onun gözlərində yalnız «qiyamçılardır» (G.V.Vernadski. Çingiz xanın Ulu Yasasının quruluşu haqqında, Bakı, 2002, s. 19). Bu inama sahib olduqları üçün onlar Səlcuqlulardan fərqli olaraq fəth etdikləri torpaqlara öz milli varlıqlarının böyüklüyünə sonsuz inam hissi ilə daxil olmuşdular.

Monqol dövlət təşkilatı, onun hüquq sistemi Turan dövlətçiliyi ən'ənələrinin davamı idi və onlar bu ən'ənəni türklərdən öyrənmişdilər. Bu üzdən dövlət təşkilatının bu forması (el) türklər üçün doğma idi və onunla ünsiyyət qaydalarını yaxşı bilirdilər.

Buna baxmayaraq, türkmanlar monqol iqtidarını birdən-birə qəbul etmədilər. Xarəzmşahların monqollara məğlubiyyəti Orta Asiyada olan bir çox türkman kütlələrinin Azərbaycana, Anadoluya və nəhayət, Misir məmlüklərinin hakim olduğu ərazilərə axışmasına səbəb oldu. Sonuncu Xarəzmşah Cəlaləddin Manqburnunun, Anadolu Səlcuqlularının, eləcə də ayrı-ayrı türkman qəbilələrinin monqollara qarşı mübarizəsi uğur qazanmadı. Nəticədə, türkmanların əksəriyyəti monqol iqtidarını qəbul etməli oldular. Yalnız Misir dövlətinin ərazisinə sığınmış türkmanlar monqol hakimiyyətindən kənarda qala bildilər.

Monqolların gəlişi Azərbaycana və Anadoluya yeni türk axınları ilə müşayiət olunur. Onların bir hissəsi monqol siyasi birliyinin içərisində olan Mərkəzi Asiya (Ötükən) və Şərqi Türküstan türkləri idi. Bundan başqa, Elxanlı dövlətinin iqtidarı dövründə Orta Asiyadan və Volqaboyundan (Cuci ulusundan) qıpçaq, bulqar, başqırd etnik birliklərinə məxsus ayrı-ayrı ellərin, qrupların, ailələrin Azərbaycana və Anadoluya gəlişi mə'lumdur (A.Zeki Velidi Togan. Göstərilən əsər, s. 251-259). Monqolların kifayət qədər milli şüura sahib olmaları, eləcə də fars və islam mədəniyyətindən o qədər də xəbəri olmayan milli ruhlu türklərin (xüsusən uyğurların) gəlişi Səlcuqluların öldürdüyü milli duyğuların dirçəlməsinə səbəb oldu. Monqol dili ilə bərabər türk dilinin (uyğurcanın) rəsmi dövlət dili olmasını xatırlasaq, XIII əsrdən başlayaraq bölgədə meydana çıxan türkcə ədəbiyyatın haradan qaynaqlandığını bilmək olar.

Elxanlıların zəifləməsi Anadoluda, Şamda, Azərbaycanda türkmanların siyasi aktivliyinin güclənməsi ilə müşayiət olunur. Onlar Elxanlı dövlətinin daxilində baş verən siyasi çəkişmələrdə iştirak edir və öz aralarında siyasi hegemonluq uğrunda

mübarizə aparırdılar. Bu dövrdə türkman bəyliklərindən ikisinin siyasi uğurları xüsusilə nəzərə çarpırdı: Anadolunun şərqində Qaraqoyunlular, qərbində isə Osmanlılar.

Osmanlılar, oğuz törəsinə görə, hakimiyyət hüququna sahib olan Kayı tayfasına mənsubdurlar. Köhnə Osmanlı tarixlərində onların monqol yürüşləri ilə bağlı olaraq Mərv yaxınlığındakı Mahandan Anadoluya gəldikləri söylənilir. Söyüd bölgəsinə gəlməzdən (1277-ci ildən sonra) öncə Ankara ətrafında yaşamışlar (F.Sumer. Göstərilən əsər, s. 162). Bu dövrdə onların başında Ərtoğrul bəy dururdu. O öləndən sonra yerində oğlu Osman bəy oturdu. Osman bəy öncə Kastamonu ucbəyliyinə tabe olan bir tayfa bəyi idi. Onun Bizans torpaqlarındakı fəthləri oğlu Orxan bəyin zamanında da davam etdi: Biləcik, Yarhisar, İnəgöl, Əskişəhər, Yenişəhər ələ keçirildi. Orxan bəyin Bursanı fəth etməsi nəticəsində bəyliyin mərkəzi buraya köçürüldü. Hələ Osman bəy zamanında Balıkesir, Manyas, Aydıncıq və ətrafları Karasi bəyliyindən alınmışdı. Bunula da, onların Rumelinə çıxışı tə'min olunmuşdu. Balkanlarda Orxan bəy dövründən başlanan fəthlər İldırım Bəyazid zamanına qədər davam etdirildi. İldırım Bəyazidin İstanbulu mühasirə etməsi (1391) bu fəthlərin kulminasiya nöqtəsi sayıla bilər. Osmanlılar təkcə Rumelinin yox, Anadolunun da fəthində böyük uğurlar qazanmışdılar. Məşhur Ankara savaşına qədər (1402) Kütahya, Tavşanlı, Emed, Simov, Akşehir, Yalvac, Seydişehri, Qaraağac, İsparta tutulmuşdu. İldırım Bəyazid zamanında Kermiyan, Aydın, Məntəşə, Saruhan bəyliyi işğal edildi (1390). Bir il sonra Çandaroğlu bəyliyinin Kastamonu bölgəsi, eləcə də Həmid eli işğal edildi. 1393-cü ildə Amasiya tutuldu. 1397-ci ildə Qaraman bəyliyi ələ keçirildi. Bir il sonra Samsun və Qazi Bürhanəddin dövlətinin torpaqları tutuldu. Misir məmlüklərinə aid bə'zi bölgələrin tutulması da Osmanlıların Anadoluda qazandıqları uğurlara aiddir.

Osmanlılar, türklər və türkmanlar. Osmanlı dövlətini Anadolu xalqının ruhuna hakim kəsilən qazilik ruhu yaratmışdı. Xaçpərəst ölkələr (gavur torpaqları) üzərinə müqəddəs hərbi yürüş («qəzavat») Anadolu xalqının ruhundan doğurdu. Burada islamın «qəzavat» ideyası ilə türklərin cəngavərlik ruhu birləşib ona qədər və ondan sonra heç vaxt təkrar olunmayacaq fenomenal bir hadisəyə çevrilmişdi. Osman qazi və onun övladları Anadolu xalqının bu ruhunu tutub onun liderinə çevrilə bildilər. Bir türkman bəyi olan Osman qazinin ətrafında öncə onun öz boyu, sonra bu boya birləşərək el halında təşkil olunan başqa türkman boyları olmalı idi. Təşkilatlanmanın *el* şəkli ən'ənəvi türk dövlətləri üçün əksər hallarda özək rolunu oynamışdır. Qəzavatda iştirak etməyə həvəslə razı olan Anadolu xalqının ayrı-ayrı təbəqələrinin Osman qaziyə birləşməsi də tarixi bir gerçəklikdir. Osman qaziyə birləşən bu kütlələr əxilərdən, dərvişlərdən, qərib igidlərdən və hətta islamı qəbul etmiş aborigen əhalidən ibarət idi.

İldırım Bəyazid dövrünə qədər hər şey klassik türk dövlət ən'ənələrinə uyğun şəkildə gedirdi: dövlət təşkilatının federal prinsipləri, idarəetmədə demokratizm,

vassalların nisbi müstəqilliyi və s., Osman qazinin ifadəsi ilə desək, «türkmançılıq»dan irəli gəlirdi. İldırım Bəyazid dövründə aparılan mərkəzləşdirmə siyasəti hər şeyi dəyişdirdi. Bu siyasət nəticəsində idarəçilər saraydan tə'yin olunmağa başladı. Oturaq əhaliyə (türklərə) nisbətdə bu siyasət özünü doğruldurdu. Yə'ni mərkəziyyətçilik, dövrünə görə, oturaq əhalini idarə etmənin ən optimal forması idi. Bunun əksinə olaraq, dövlət idarəsinin bu şəklini *el* və *tayfa* şəklində təşkil olunmuş köçərilərə qəbul etdirmək çətin idi. Yüzillərlə *tayfa, el* (tayfalar birliyi) və ellər birliyi şəklində təşkilatlanıb andlaşma yolu ilə böyük dövlətlər qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmək şərti ilə müstəqil idarəyə alışmış köçəriləri birdən-birə mərkəziyyətçi prinsiplərlə idarə etməyə girişmə dövlətin özünü sonu görünməyən bir bəlanın içərisinə atması demək idi. Ən dəhşətlisi ondadır ki, dövlət öz gücünün böyük bir hissəsini öz xalqına sərf etdiyini hiss etmədi. Nəticədə, etnik enerji hər iki tərəfdən (iqtidar və müxalifət) özü-özünə sərf olundu. Baş verən faciənin ölçüsünü təsəvvür etmək üçün Anadoluda Osmanlı dövləti əleyhinə çoxsaylı üsyanları, Ağqoyunlu-Osmanlı və Səfəvi-Osmanlı savaşlarını göz önünə gətirmək yetər.

Dövlətin mərkəziyyətçi prinsiplərlə idarəsini başda sultan olmaqla dövlət ərkanının şıltaqlığı ilə bağlı olduğunu da düşünmək olmaz. Unutmayaq ki, bu dövrdə (XIV-XVI) Osmanlı dövlətinin idarəsi altında olan bölgələrdə çoxsaylı oturaq əhali, yə'ni türklər var idi. Ona görə də dövlət mərkəzləşdirmə siyasəti yeridərkən bu sosial bazaya söykənirdi. Dövlətin köçəri əhalini zorla oturaqlaşdırması siyasəti söykəndiyi prinsiplərə uyğun olaraq ölkə daxilində «sosial nizam» yaratmaq istəyindən irəli gəlirdi. Bu hadisəyə yuxarıda qeyd etdiyimz türk-türkman sosioetnik qarşıdurmasına söykənərək türkmanların türkləşdirilməsi kimi də baxmaq olar. Osmanlıların «türk» və ya «türki-Rum» adı ilə tanınması bu sosioetnik gerçəyə söykənirdi. *Beləliklə, quruluş prosesində «türkmançılıq» ən'ənələrinə söykənən Osmanlı dövləti sonda türk dövlətinə çevrildi.*

Osmanlı dövlətinin Bəyazid zamanında türkman bəyliklərini ilhaq etməsi sonda tam bir iflasa uğradı. İstiqlaliyyəti əlindən alınmış türkman bəyləri Əmir Teymura xilaskar kimi yanaşdılar. Ankara savaşında Osmanlıların məğlub olma səbəbini hər şeydən öncə burada axtarmaq lazımdır. Savaş prosesində Bəyazid ordusunda olan türkmanların Əmir Teymur tərəfə keçməsi məsələnin mahiyyətini açıqlayır. Beləliklə, Ankara savaşından sonra türkman bəylikləri Əmir Teymurla razılaşmalarına uyğun olaraq yenidən istiqlaliyyətə qovuşdular. Türkman bəyliklərinin istiqlaliyyəti məsələsi Şahruh zamanında da Teymur dövlətinin diqqət mərkəzində olmuşdur.

Böyük türkman dövlətləri. Teymur dövlətinin zəifləməsi bir tərəfdən Anadoluda olan türkman bəyliklərinin Osmanlı dövlətinə yenidən ilhaq edilməsi, başqa tərəfdən isə Qaraqoyunluların simasında türkmanların böyük siyasətə gəlməsi ilə müşayət olunur. Türkmanlar üçün uzun müddət gözlənilən gün gəlib çatmışdı.

Onların siyasi proqramları da məlum idi. Qaraqoyunlu bəyi Qara Yusif, Ağqoyunlu bəyi Qara Osmana göndərdiyi məktubunda yazırdı: «Biz hər ikimiz türkmanıq. Bundan sonra bir-birimizi əzməməliyik. Bizlərdən hər birimiz düşmanlarımız olan Rum və Cığataylarla vuruşmalıyıq. Sən Şam və Ruma qarşı, mən də Cığataya qarşı vuruşmalıyıq» (Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə, Bakı, 1998, s. 59).

Böyük Qaraqoyunlu hökmdarı Qara Yusif bu siyasi proqrama uyğun şəkildə hərəkət etdi. Onun və övladlarının Cığatay ulusuna qarşı mübarizəsi Cığatayların Azərbaycandan çıxarılması və Qaraqoyunlu dövlətinin (1410-1467) qurulması ilə başa çatdı.

Qaraqoyunluların hakimiyyətə gəlişi özünün klassik şəklinə uyğun olaraq oğuz dövlətçiliyi ən'ənələrinin bərqərar olması demək idi. Oğuz ən'ənələrini yaşadan türkmanlar bu günə gəlib çatmaq üçün 350 ildən artıq səbr etməli olmuşdular. Qaraqoyunluların hakimiyyətə gəlişi Osmanlı dövlətində olduğu kimi, təkcə, bir ailənin və ya Qara Yusifin mənsub olduğu *barani* tayfasının hakimiyyətə gəlişi deyildi. Bu hakimiyyət Qara Yusifin ailəsi başda olmaqla bütövlükdə Qaraqoyunlu elinin iqtidara gəlişi idi. Bu isə o demək idi ki, dövlət Qaraqoyunlu elinin üzvləri olan bütün tayfa və hətta bu böyük el birliyinin içərisində olan kiçik ellərin şərikli mülkü idi. Dövlət təşkilatının bu şəkli köçəri ən'ənələrə bağlı idi. Ona görə də bu dövlət Qara Yusifin ailəsinin və hətta mənsub olduğu tayfanın adı ilə deyil, mahiyyətinə uyğun şəkildə *Qaraqoyunlular* adı ilə təqdim olunurdu.

Qaraqoyunluların məğlubiyyəti və Ağqoyunluların hakimiyyətə gəlişi ilə sadəcə bir türkman eli başqasını əvəz edir. Oğuz dövlətçiliyi ən'ənələri isə yeni şəraitə uyğun şəkildə yaşamaqda idi. Türkman dövlətlərinin yaranması oğuz dövlətçiliyi ən'ənələrinin, bütövlükdə oğuz törəsinin türkmanlar arasında yaşadığını göstərməkdədir.

Yuxarıda deyilənlərə əsaslanıb, bə'zi etnoloji umumiləşdirlmələr aparmaq mümkündür. XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətinin varlıq səbəbi ilə bağlı olaraq Anadolu türkmanlarının əsas hissəsi Azərbaycana axışmışdılar. Anadoluda qalan türkmanlar ilə subetnos şəklində türklər içərisində öz varlıqlarını davam etdirirdilər.

Türkmanlarının əksəriyyətinin Azərbaycanda toplanması hesabına onlar türkləri və başqa etnik qrupları da öz içərilərinə alaraq hakim etnosa çevrildilər. Beləliklə, Anadoluda türklər, Azərbaycanda isə türkmanlar hakim etnosa çevrildilər. Bu vəziyyət bizə hələ XV əsrdə Anadoluda və Azərbaycanda olan etnik sistemlərin fərqli şəkildə qurulduğunu açıq şəkildə göstərir. Orta Asiyada isə türkmənlər özbəklərin içərisində subetnos olaraq öz varlıqlarını davam etdirirdilər. Onlar elat sistemini qorumaqla özbək xanlarına tabe vəziyyətdə idilər.

XVI əsrin başlanğıcında qızılbaşların hakimiyyətə gəlişi türkman tarixində ciddi dönüş nöqtəsi idi.

Qızılbaş Səfəvi təriqətinə mənsub olanların ən geniş yayılmış adıdır. Təriqət öz adını onu yaradan Ərdəbil şeyxi Səfiəddinin (ölümü 1314) adından almışdır.

Səfəviyyə təriqəti bəktaşilik kimi Xoca Əhməd Yasəvinin yaratdığı yasəviyyə ən'ənələrinin davamıdır (İ.Melikov. O sredneaziatskom proisxojdenie sufizma Anatolii, ST, 1988, № 5, s. 22-28). Əmir Teymurun bu ocağa xüsusi rəğbət göstərməsi ucbatından onun və varislərinin hakimiyyət illəri Səfəvilərin fəal təbliğat dövrüdür. Qaraqoyunluların hakimiyyətə gəlişi ilə Səfəvi ocağının şeyxi Cüneyid Azərbaycanı tərk edərək Anadoluya getməli olur.

Cüneydin Anadolu həyatı II Muradın hakimiyyəti dövrünə düşür. Bu zaman Cüneyd Anadoluda yaşamaq üçün II Muraddan icazə istəyir. Sultan «bir məmləkətdə iki sultan olmaz» cavabını verərək Cüneydin xahişini rədd edir. Görünür ki, sultanın Şeyx Cüneydə rədd cavabı verməsi onun şiə yönümlü təbliğatı ilə bağlı olmuşdur. Bəllidir ki, Səfəvi ocağının şiəliyə keçidi Şeyx Cüneydin həyatının Anadolu dövründə baş vermişdir. Bu illərdə Şeyx Cüneyd Anadoluda fəal təbliğatla məşğul olmuşdur. O, Uzun Həsənin bacısı ilə evləndikdən sonra Ağqoyunluların himayəsindən istifadə edərək öz fəaliyyətini daha da gücləndirmişdir.

Şeyx Cüneydin məhz Anadoluda şiəliyi qəbul etməsi burada hələ Səlcuqlular dövründən başlayaraq şiəliyin güclü olması ilə izah oluna bilər. Səlcuqlulardan, xüsusən, Osmanlılardan narazı olan Anadolu xalqı dövlətin rəsmi təriqəti olan hənəfiliyə müxalifət olaraq şiə yönlü təsəvvüf təriqətlərinin başında dayanan babaların, dədələrin, ataların tə'siri altına düşürdülər. Təriqət sisteminin elat sisteminə uyğunlaşdırılması, təriqət mərasimlərinin şaman mərasimləri ilə sintezi, ağsaqqallığın təriqət rəhbəriliyi ilə birləşdirilməsi, yazı-pozudan uzaq olan əhalinin bilik səviyyəsinə mütənasib şəkildə təsəvvüf ideyalarının sadəliyi və təbliğatın poetikliyi, türk cəngavərlik psixologiyası ilə *qəzavat* ideyasının uzlaşdırılması onların uğurlu fəaliyyətini tə'min edən şərtlər idi.

Başqa türk təriqətlərində də olan *qəzavat* düşüncəsi Şeyx Səfi təriqətində ifrat səviyyədə idi. Ağqoyunlu tarixçisinin verdiyi aşağıdakı mə'lumat bu baxımdan maraqlıdır: «Şeyxin təbiətən cəsur adam olması bəllidir. Ox atmaqda, qılınc, nizə, kəmənd işlətməkdə böyük bacarıq qazanmışdı və bu bacarığına görə Rüstəmi və Əfrasiyabı utandırardı. O özünün bütün vaxtını cəngavərlərə bənzər şəkildə fiziki məşqlərlə keçirərdi. Deşici və kəsici silahlar hazırlamaqda bənzərsiz idi.

Mən eşitmişəm ki, o, silahdarların köməyi olmadan bir neçə min nizə, zireh, qılınc və qalxan hazırlamış və hazırlayacağına and içmişdi. Ona görə ki, bir mürşüd olaraq müridlərini özü öyrətməyi arzulayırdı. Bunlar hazır olanda saysız-hesabsız kütlə onun ətrafında toplandı... O öz silahları ilə onları silahlandırdı. Çevik və savaşqan, döyüşdə bacarıqla qılınc çalan gənclər onun itaətində idilər» (Fəzlullah İbn Ruzbixan Xundji. Tarix–i alam–ara–yi Amini, Baku, 1987, s. 82-83).

Şeyx Cüneydin və Şeyx Heydərin çərkəzlər üzərinə etdiyi qəzavatın siyasi üzü Şah İsmayıl Xətainin aşağıdakı misralarında aydın şəkildə əks olunur:

Şirvan xəlayiqi qamu Təbrizə daşına,

Mülki - Əcəm sorar ki, qiyamət xaçan qopar.

Bu misralara Səfəvi-qızılbaş hərəkatının siyasi proqramı kimi də baxmaq olar. Məqsəd Azərbaycanın siyasi birliyinə nail olmaq və onun gücü ilə İranı fəth etmək idi. Şeyx Cüneydin və oğlu Heydərin Qafqazın şimalına etdiyi yürüşlərin isə geosiyasi baxımdan ölkənin şimal sərhədlərini qapamaq ehtiyacından doğduğunu düşünmək olar. Bu işin Səfəvi dövlətinin sonrakı dövrlərində və hətta Səfəvilərdən sonra da dövlətin diqqət mərkəzində olduğu mə'lumdur. Beləliklə, Səfəvilərin Şeyx Səfi zamanından aydın bir siyasi proqrama malik olduqlarını düşünmək olar.

Bu siyasi proqrama uyğun olaraq Səfəvilər öncə Azərbaycanın siyasi birliyinə nail oldular. Bunun ardınca İranın ayrı-ayrı əyalətləri fəth olundu. Teymur varislərinin hakim olduğu torpaqlara sahib olmaq uğrunda özbəklərlə qızılbaşlar arasında rəqabət başlandı. Bu rəqabət nəticəsində özbəklər Xorasandan çıxarıldı və hətta Türkistanın bir hissəsi müəyyən müddət qızılbaşların hakimiyyəti altına keçdi. Bütün bu torpaqlar Qızılbaş məmləkəti (Məmləkət-i Qızılbaş) adlandırıldı. M.F.Axundov qızılbaş tacının İranın rəmzi ola biləcəyini deyərkən İranın müasir siyasi xəritəsinin yaranmasında qızılbaşların oynadığı rola işarə edirdi.

Qızılbaşlar Xorasana və Türkistana çıxarkən əslən *türkman* olan bu tayfaları *türkman* olaraq qəbul etmədilər. Z.M.Baburun qızılbaşları *türkman* adlandırmasını onların əslən *türkman* olması şəklində anlamaq lazımdır (Z.M.Babur. Vekayi (Baburun hatıratı) I c., Ankara, 1987 s. 0-18). Təkcə, siyasi rəqibləri olan *özbəklər* deyil, soydaşları olan *türkmənlər* də onları *qızılbaş* kimi qəbul etdilər. Görəsən, nə hadisə baş vermişdi? Bu suala cavab vermək problemin ən çətin tərəfidir. Bu yazının janrına uyğun olaraq baş verən hadisənin ümumi cizgilərini çəkməyə çalışaq.

Qızılbaş birliyi Qaraqoyunlu və Ağqoyunlular kimi etnik ideala (türkmanlıq) deyil, təriqət idealına (qızılbaşlıq) əsaslanırdı. Şeyx Səfiyəddin birliyin prinsipini «övladmı əzizdir, ashabmı?» şəklində müəyyənləşdirmişdi. Ona görə də qızılbaş birliyinin onurğa sütunu türkman əsilli tayfalardan təşkil olunsa da, onların içərisində cığatay, monqol, kürd, talış, gürcü, çərkəz və sairə ünsürlər də var idi.

Qızılbaşlar şeyx Səfi təriqətinin adabına uyğun şəkildə tərbiyə olunmuşdular. Bu o deməkdir ki, göstərdiyimiz kimi, ən azı bu təriqətin özəyi olan «müridlər», «qazilər» və «sufilər» ən'ənəvi etnik sistemdən fərqli olan dünyagörüşə, psixologiyaya, davranış stereotiplərinə malik idilər. Bir-birləri ilə qarşılaşarkən «salam» əvəzinə «şah» deməkləri, Həcc əvəzinə Ərdəbil ocağını ziyarət etmələri, geyimlərində (papaqlarında) dəyişikliklər, islamla bağlılığı olmayan mərasimləri və s. bu tərbiyənin üst tərəfidir. İçərisi isə təriqət adabının onların ruhuna hopdurulması ilə bağlı olaraq yaranmış bütöv bir davranış kompleksidir. Elə buna görə də onlar öz idealları yolunda hər an ölümə hazır idilər. Şeyx Səfi varislərinin özləri bə'zi hallarda tərbiyə etdikləri müridlərin qarşısında aciz idilər. Şeyx Səfi müridlərinin passionar gücünün çəkisini müəyyən səbəblər ucbatından sona qədər demək mümkün deyil. Ancaq onun əzəmətini anlamaq üçün tarix kitablarında

yazılanlar da kifayətdir. Beləliklə, Qızılbaş birliyinin passionar partlayışı böyük bir ərazidə öz iradəsini yeridə bildi.

Bu tarixdən sonra türkman əsilli tayfalar özlərini *türkman* adı ilə deyil, *qızılbaş* adı ilə təqdim etməyə başladılar. Anadolu və Orta Asiya türkmanları ilə Qızılbaş türkmanlar arasında etnik səviyyədə parçalanma bu vaxt baş verdi. Bir xalqın, bir elin, bir tayfanın və hətta bir tirənin üç etnik sistemə bölünməsi buradan başlayır. Ancaq bu kifayət deyil. Sanki bu parçalanmanın qisasını alırmışlar kimi onlar hələ uzun müddət biri-birlərinin qanını tökəcəkdilər.

Qızılbaşlar, osmanlılar və türkmanlar. Sonuncu türkman dövləti olan Ağqoyunluların qızılbaşlar tərəfindən çökdürülməsi ilə türkmanlar son dərəcə ağır bir vəziyyətə düşdülər. Sultan Mehmet Fateh dövründə türkmanların sıxışdırılması mə'lumdur. Türkiyə araşdırıcıları bu siyasətə görə sultanı bu işə təhrik edən Ağşəmsəddini qınasa da, onun səbəbinə toxunmurlar. Bizcə, bu təqibin əsil səbəbini Ağqoyunlu dövləti ilə Osmanlı dövləti arasındakı rəqabətdə axtarmaq lazımdır. Bəllidir ki, Ağqoyunlular Osmanlı tarixlərində etnik mahiyyətinə uyğun şəkildə «türkman» adlandırılır. Ağqoyunlularla Osmanlılar arasındakı ziddiyyətlər Osmanlı idarəsi altında olan türkmanlara olan münasibəti dəyişdirməli idi. Burada türkmanların bir hissəsinin şiə meyilli olması da müəyyən rol oynamışdır. Amma əsas səbəb Osmanlı Ağqoyunlu ziddiyyətlərindən irəli gəlirdi. Qızılbaşların sonuncu türkman dövlətinin varlığına son qoyması türkmanların vəziyyətini daha da ağırlaşdırdı və onlar iki böyük dövlətin arasında qaldılar. Sünnü türkmanlar (Ağqoyunlu və Osmanlı tərəfdarı kimi) qızılbaşlar tərəfindən, şiə türkmanlar isə (qızılbaş tərəfdarı kimi) Osmanlılar tərəfindən təqib olunmağa başlandı.

Türkmanlardan bir hissəsinin «kürd» etnonimi altında gizlənməsi də bu dövrün yadigarıdır. Nəticədə, onlardan bir hissəsi Şərqi Anadoluda tamamilə kürdləşmiş, bir hissəsi isə (həm Anadoluda, həm də Azərbaycanda) kürdcə bir kəlmə belə bilmədikləri halda özlərini *kürd* sayırlar. Sözü gedən əhalinin oğuz-türkman mənşəli olduğunu əsaslandırmağa heç bir ehtiyac yoxdur.

Qızılıbaş hakimiyyəti illərində biz türkmanları qızılbaş tayfalarından biri kimi görürük. O.Əfəndiyev İsgəndər Bəy Münşinin verdiyi siyahıya əsaslanaraq türkman tayfasının şamlı, rumlu, ustaclı, zülqədər, əfşar, təkəli tayfaları ilə birgə Səfəvilərin «qədim «sufiləri», «qaziləri», «müridləri» və Səfəvilər dövlətinin baniləri”””””””””””””””””» olduğunu bildirir (O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993, s. 195). Əgər belədirsə, onda etnik adın tayfa adına çevrilməsi maraq doğurur. Həqiqətən də, «türkman» sözü bir çox vəzifəli şəxslərin tayfa mənsubiyyətinin göstəricisi kimi adının sonuna əlavə olunur. Etnik adın tayfa adına çevrilməsi bir qədər çətin məsələdir. Çünki tayfalar, eləcə də tirələr ən'ənəvi şəkildə öz adı ilə təqdim olunurdu. Bu hadisə bir neçə tayfanın və tirənin *türkman* adı altında birləşməsi halında mümkündür.

Sonrakı dövrlərdə *türkman* etnonimi öz yerini *tərəkəmə* sözünə verməli olur. Bəllidir ki, köçəri həyat tərzi keçirən əhalinin bir hissəsi bu günə qədər «tərəkəmə» adlanır. «Tərəkəmə» sözünün «türkman» etnoniminin ərəbcə cəminin («tərakimə») türkləşmiş şəkli olduğunu qeyd etdik. İndiki halında terminin sosial anlamı etnik anlamının üzərinə kölgə salmışdır. Azərbaycanda etnonimin ərəbcə cəm şəklinin aktivləşməsi və xalq səviyyəsində qəbul olunması onların Anadolu və Orta Asiya türkmanlarından fərqləndirilməsi məqsədi daşımışdır. Bizcə, vəziyyətin bu şəklə gəlməsi birbaşa Səfəvi sarayı ilə bağlı olmuşdur.

Qızılbaşların hakimiyyəti ələ almaları ilə bir etnos olaraq türkmanların birdəfəlik siyasi səhnədən sıxışdırılıb çıxarılması başa çatmışdır. Bu tarixdən başlayaraq qızılbaşlarla yaşılbaşların (özbəklərin) və ağbaşların (osmanlıların) üç yüz ilə qədər davam edəcək və bütün tərəfləri yorub əldən salacaq müharibələri başlayır. XX əsrdə *türkman* etnonimi (azca fonetik dəyişikliklə) *türkmən* şəklində yenidən siyasi səhnədə səslənir. Onlar öncə Türkmənistan SSR-ni təşkil etdilər. SSRİ-nin dağılmasından sonra Türkmənistan Respublikası meydana çıxdı.

Türkmanlar və türkmənlər. Elmdə *türkman* etnonimi ilə *türkmən* etnonimi aydın şəkildə fərqləndirilir. «Türkman» (etnonimin qaynaqlarda göstərilən variantı) termini bu yazıda sözü gedən etnosa aid olunur. Göstərməyə çalışdığımız kimi, bu etnosun parçalanması nəticəsində Anadolu türkləri, Azərbaycan türkləri və müasir türkmənlər yaranmışdır. Ona görə də etnonimin *türkmən* şəkli müasir türkmənlərə aid olunur.

Monqol yürüşlərinin nəticəsi olaraq türkmanların qərbə doğru yeni axınları başlandı. Nəticədə, onlar Orta Asiyada azlıqda qalaraq öncə cığatayların, sonra isə özbəklərin içərisində subetnos olaraq öz varlıqlarını davam etdirdilər. Bu vəziyyət onların türkman dünyasından təcrid olunmasına səbəb oldu. Bu zaman yeni etnosun yaranmasına şərait yarandı. Türkmənlərin içərisinə qeyri-türkmən və qeyri-türk elementlərin (türkmənlər onları «qul» adlandırır) qarışması da bu dövrə aiddir. Türkmənlər içərisində Azərbaycanda və Anadoluda olmayan tayfalar və tayfa birliklərinin (el) meydana çıxması da bu proseslərin nəticəsidir. Daxil olduqları etnik sistemlərin tə'sirinə mə'ruz qalmaları, yaşadıqları coğrafiya içərisində adaptasiya olunmaları, Anadoludan və Azərbaycandan fərqli olaraq elat sistemini XX əsrin əvvəllərinə qədər qoruyub saxlamaları onların diferensiallaşaraq yeni bir etnik sistemə – türkmənlərə çevrilmələrini şərtləndirən başlıca amillərdir.

Türkmən xalqı Azərbaycan və Anadolu türklərindən fərqli olaraq XX əsrə qədər elat sistemini qoruyub saxladıqları üçün özlərinin etnik adlarını da saxlaya bildilər. Elat sistemini itirənlər isə, yuxarıda göstərdiyimiz kimi, Azərbaycan və Türkiyə türklərinə çevrildilər.

Türkmənlər və türkmanlar. Türkmən qardaşlarımız «türkmən» etnosu ilə «türkman» etnosu arasında bərabərlik işarəsi qoyurlar. Bu üzdən həm diaxronik,

həm də sinxronik səviyyədə türkmənlərlə türkmanlari eyniləşdirirlər. Bu halda həm tarixi türkmanlar, həm də Türkiyə və Azərbaycan türklərinin içərisində etnoqrafik qrup olaraq mövcud olan türkmanlar və tərəkəmələr müasir türkmən xalqının bir hissəsi kimi dərk olunur. Bu sıraya İraq və Suriya türkmanlarını da əlavə etmək istərdik. Elə ona görə də, Türkmənistan Respublikasının səfiri Cəfərabad kəndindəki «türkman əmirləri» künbəzinin açılışında abidənin sahibi olan xalqın elçisi kimi çıxış edir. Bu yazımızın janrına uygun şəkildə butöv bir xalq olan turkmanların Turkiyə turklərinə, Azərbayçan turklərinə və turkmənlərə çevrilməsi prosesini izləməyə çalışdıq. Yuxarıda verdiyimiz təhlillər kontekstində turkman əsilli bu uç xalqın əcdadları olan turkmanların mə'nəvi məhsullarına sahiblik haqqının səviyyəsini asanlıqla görmək olar.

Türkmən qardaşlarımızın (Türkiyə türkləri, krımtatarlar, özbəklər, salarlar və s. kimi) «"türkman əmirləri» abidəsinə mə'nəvi haqqı çatdığını inkar etmək olmaz. Ona görə ki, künbəzdə «yatan» əmirlərə türkmənlərin babaları bir xalq idilər. Bütün bunlardan kənarda «türkman əmirləri» abidəsinin etnik kimliyini mübahisə predmetinə çevirmək gülünc görünür. Ermənilər tərəfindən qovulan cəfərabadlılar, eləcə də indiki Ermənistan ərazisindən qovulan türklər hansı ölkəyə üz tutdularsa, «türkman əmirləri» abidəsi də həmin xalqa məxsusdur. Buna baxmayaraq, türkmən qardaşlarımızın türkmanların etnik tarixinə və mə'nəvi mədəniyyətinə yiyə durmalarına ancaq sevinmək olar. Əgər türkmən qardaşlarımız Ermənistan ərazisindən qovulanların hamısının türkman olduğunu anlasa, onda Ermənistan əleyhinə bir müttəfiqimiz də artmış olacaq. Yəqin ki, türkmən qardaşlarımızın belə bir faktdan xəbərləri yoxdur ki, indiki Ermənistan ərazisinin böyük bir hissəsi erməni qaynaqlarında, eləcə də XIX əsrə qədərki Avropa xəritələrində və coğrafiya dərsliklərində «Türkomaniya» adlanır (S.A.Mamedov. Göstərilən əsər, s. 134; Türkiye Cumhuriyetini kuran türk milletinin tarihi, Ankara, 1988, s. 87-88). Bu toponim «Koroğlu» və «Şah İsmayıl» dastanlarının yaddaşında sadəcə «türkman» şəklində qalıb.

Bu baxımdan yanaşsaq, indiki Ermənistandan qovulanların hamısının türkman olduğuna şübhə yeri qalmaz. Bu halda bəlli odur ki, Türkmənistan Respublikasının elçisi XX əsrdə meydana çıxmış Türkmənistandan çıxaraq özünün siyasi missiyasını əslində Türkman ölkəsində yerinə yetirir. Türkmən qardaşlarımızın türkman sevgisinə güvənərək düşünmək olar ki, bu faktı biləndən sonra Ermənistanla siyasi əlaqələrini, tamamilə, kəsəcəklər. Kəsməsələr belə, ermənilərlə birləşib öz soydaşları əleyhinə iş birliyinə getməz və Ermənistan ərazisində türk varlığının avtoxton olmadığını göstərməkdə ermənilərə yardımçı olmazlar.